**Respublika.** - 2023.- 29 aprel. - № 87. - S. 8.

# Ümummilli lider tolerantlıq siyasəti ilə ölkəmizin demokratik inkişafının əsasını qoydu

## Tolerantlıq: Yüksək mədəniyyətin təzahürü

**Anatoli Rafailov**,
Milli Məclisin deputatı

***Azərbaycanda minilliklər boyu müxtəlif etnik qruplar yaşayıblar. Bu fakt tolerantlıq keyfiyyətinin xalqımızın tarixindən irəli gəldiyini göstərir. Bu mənada ölkəmiz həqiqətən də dözümlülük mədəniyyətinin formalaşdığı tolerantlığın beşiyidir. Şübhəsiz, minillər öncə formalaşmış ənənələr zaman keçdikcə yeni xüsusiyyətlər kəsb edib və bu coğrafiyada yaşayan insanların başlıca keyfiyyətinə çevrilib. Bu prosesdə adı tarixə qızıl hərflərlə həkk olunmuş ulu öndər Heydər Əliyevin xidmətləri danılmazdır. Hələ ötən əsrin 70-80-ci illərində ulu öndər ölkəmizdə yaşayan bütün xalqları Azərbaycanın mənəvi bayrağı altında birləşdirməyə nail olmuşdu.***

Xalqın təkidli xahişi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı nəticəsində Azərbaycan müstəqillik yolunda daha inamla inkişaf etməyə başladı. Ümummilli liderin geniş fəaliyyəti sayəsində, ilk növbədə ölkəmizdə sabitlik yarandı, siyasi, iqtisadi, sosial, hüquqi islahatlar həyata keçirildi. Eyni zamanda milli-mənəvi dəyərlərə qayıdışın yeni dövrü başlandı. Bununla yanaşı, müxtəlif fikir, inam, əqidə və dünyagörüşlərə qarşı insanın mədəniyyət səviyyəsinin ölçüsü kimi xarakterizə olunan, bəşəri ideyalara əsaslanan tolerantlıq Azərbaycan dövlətinin quruculuğu konsepsiyasının təməl prinsiplərindən biri kimi azərbaycançılıq ideologiyası kontekstində nəzərdən keçirildi. Çünki ulu öndər tolerantlıq siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi.

### Ulu öndər Azərbaycanın bu ictimai-siyasi mənzərəsi ilə fəxr edərdi

Heydər Əliyev 1998-ci ilin may ayında Prezident Sarayında ölkənin din xadimləri ilə görüşündə söylədiyi nitqində ölkəmizdəki tolerantlığı belə şərh etmişdir: "Azərbaycanda müxtəlif dinlərin bu cür birliyinin olması müstəsna dərəcədə nümunəvi xarakter daşıyır. Bu, əslində, Azərbaycanın reallığını, eyni zamanda, Azərbaycan xalqının dini dözümlülüyünü göstərir. Azərbaycanda əhalinin əksəriyyətini İslam dininə etiqad edən azərbaycanlılar təşkil edir. Ancaq, eyni zamanda, Azərbaycanda xristian-pravoslav, yəhudi dininə etiqad edən insanlar, müxtəlif millətlərin nümayəndələri də yaşayırlar".

Ümummilli lider Heydər Əliyev tolerantlığın, birgəyaşayış mədəniyyətinin xalqımız üçün xarakterik xüsusiyyət olduğunu göstərirdi və Azərbaycanı mədəniyyətindən, dinindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələrinin doğma vətəni adlandırırdı: "Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan Respublikasının ən böyük sərvəti, bəlkə də ən birinci sərvəti burada uzun əsrlər bir yerdə yaşamış, dostlaşmış, qardaşlaşmış müxtəlif xalqların birliyidir". Bu mənada ulu öndər tolerantlığı ölkəmizin səciyyəvi cəhəti kimi dəyərləndirir və Azərbaycanın bu ictimai-siyasi mənzərəsi ilə fəxr etdiyini vurğulayırdı.

Ölkəmizin vətəndaşlarının dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malik olduqlarını və onların hüquqlarının dövlətimiz tərəfindən qorunduğunu bu və ya digər tədbirlərdə dəfələrlə qeyd edən ulu öndər bu prinsiplərə həmişə sadiq qalırdı. Bunu "Yüksək tolerantlıq ilk növbədə yüksək mədəniyyətin təzahürüdür", - deyən ümummilli liderin əməli fəaliyyətində də görmək olurdu. Məsələn, dözümlülük və tolerantlıq münasibətini həmişə diqqət mərkəzində saxlayan dünya səviyyəli tarixi şəxsiyyətimiz ölkəmizdə yaşayan qeyri-İslam dini icmalarına qarşı həmişə hörmət və ehtiram göstərər, dini bayramlarını təbrik edər, adət-ənənələrinə qayğı ilə yanaşar, onların ibadətgahlarına fərq qoymadan baş çəkər, müxtəlif dinlərin və xalqların nümayəndələri ilə mütəmadi görüşərdi. Bütün bunlar ümummilli lider Heydər Əliyevin tolerantlığa verdiyi önəmin daha bariz nümunələri idi. Buna aid bir misal da göstərmək istərdim. 2003-cü il aprelin 26-da xristianların Müqəddəs Pasxa bayramı münasibətilə ünvanladığı təbrikdə Heydər Əliyev yazırdı: "Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra bu dini mərasimin pravoslav vətəndaşlarımız tərəfindən geniş şəkildə qeyd edilməsi ölkəmizdə dilindən, dinindən və etnik mənsubiyyətindən asılı olmayaraq, uzun əsrlər boyu bir yerdə yaşayan xalqlar arasındakı dini dözümlülüyün parlaq təzahürüdür. Ölkəmizin pravoslav xristianlarının hazırda Pasxa bayramını təntənə ilə qeyd etmələri Azərbaycan Respublikasında bu gün də hökm sürən

tolerantlıqdan və konfessiyaların azad fəaliyyəti üçün yaradılmış imkanlardan bəhrələnməyin gözəl ifadəsi sayıla bilər".

## Ulu öndər tolerantlığın incəliklərini də diqqət mərkəzində saxlayırdı

Ulu öndər Heydər Əliyev nəinki pravoslav xristianlarına qarşı diqqətli olmuş, o, katoliklərin, eyni zamanda başqa din nümayəndələrinin də problemləri ilə həmişə maraqlanmış və onlara da qayğıkeş münasibət göstərmişdir. Ulu öndər, həmçinin digər xalqların kədərini də əsas etnosla yanaşı 20-dən çox milli azlıq yaşadığı Azərbaycanın kədəri kimi qəbul edərdi. Bunu ulu öndərin 3 may 1997-ci ildə Azərbaycandakı yəhudi icmasına müraciətindən də aydın görmək olar: "Əziz həmvətənlər! Hər il mütərəqqi bəşəriyyət Yəhudi Xalqının Müsibəti Gününü - İkinci Dünya müharibəsi zamanı soyqırımı siyasətinə məruz qalmış günahsız qurbanların xatirəsini dərin hüznlə yad edir. Həmin dəhşətli müharibədə yəhudi millətinə mənsub altı milyon mülki əhali alman faşizmi tərəfindən xüsusi amansızlıqla qətlə yetirilmişdir. Belə milli faciələr Azərbaycan xalqının həyatından da yan keçməmişdir. Beş il əvvəl xalqımızın tarixinə qanlı səhifə kimi daxil olmuş Xocalı soyqırımı ağlasığmaz erməni vəhşiliklərinin miqyasına görə Kiyevdəki Babiy Yar, Varşava və Krakov gettolarında faşistlərin törətdikləri kütləvi insan qırğınları ilə bir sırada durur. Yəhudilərin milli hüzn günündə Azərbaycan xalqı adından böyük kədərinizə şərik olduğumu bildirir, soyqırımı siyasətinin bütün günahsız qurbanlarına Allahdan rəhmət diləyirəm". Bəli, bütün bunlar bir daha sübut edir ki, ulu öndərin həyata keçirdiyi siyasətin bütün məqamlarında tolerantlığın adi incəlikləri belə diqqət mərkəzində saxlanılıb.

Ulu öndər həyata keçirdiyi tolerantlıq siyasəti ilə respublikamızda yaşayan etnik və dini icmalar arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə nail oldu. Daha doğrusu, ölkəmizdə tolerantlıq modelini tam formalaşdırdı. Yeri gəlmişkən, hazırda da bu model bir sıra ölkələr tərəfindən öyrənilməkdədir. Şübhəsiz, Azərbaycanda tolerantlıq mühiti hər zaman ən yüksək səviyyədə olduğu üçün burada keçirilən millətlər və dinlər arasında olan münasibətlərə, dialoqa həsr edilmiş beynəlxalq səviyyəli bir çox tədbirlər, elmi konfranslar da bu prosesdə önəmli rol oynayır.

Yeri gəlmişkən qeyd edək ki, Heydər Əliyevin Azərbaycanda tolerantlıq dəyərlərinin inkişafındakı rolunu dünya dini liderləri də həmişə etiraf ediblər. Belə ki, Ümumgürcüstan Katolikos Patriarxı II İlya: "Bu gün Azərbaycanda mövcud olan tolerant mühitin formalaşmasında Heydər Əlirza oğlu Əliyevin xidməti böyükdür", İslam Konfransı Təşkilatının İslam Tarixi, Mədəniyyəti və İncəsənəti Araşdırmalar Mərkəzinin rəhbəri Xalid Erən: "Möhtərəm Heydər Əliyevin çoxdinli, çoxmədəniyyətli bir dünyada xüsusilə din və mədəniyyət sahəsindəki əlaqələrin genişlənməsinə zərurətin olacağını əvvəlcədən sezərək aydınlatdığı üfüqlər bu gün də eyni genişlikdə qarşımızda açılır", Türkiyə Respublikasının Azərbaycandakı keçmiş səfiri H.A.Karslıoğlu: "Heydər Əliyev müsəlman idi, ancaq bütün insanlara istər xristianlığa, istər yəhudiliyə, istərsə də digər dinlərə hörmətlə yanaşmışdır" deməklə ulu öndərin layiq olduğu qiyməti veriblər.

Ulu öndər bu siyasəti ilə etnik və dini icmalar arasında dostluq və qardaşlığın möhkəmlənməsinə yeni töhfələr verdi. Ölkəmizdə müxtəlif millətlərə, dinlərə məxsus vətəndaşlar üçün hər cür şərait yaratdı. Onların dini ocaqlarının normal fəaliyyət göstərməsi üçün çalışdı. Bu gün ölkəmizdə yaşayan müxtəlif millətlərin, azsaylı xalqların müqəddəs saydıqları ocaqlarda dini ayinlərini sərbəst şəkildə yerinə yetirmələri, öz ana dillərində təhsil almaları məhz ulu öndərin xidmətləridir. Azərbaycanda tolerantlığın xarüqələrinə şübhə edənlər buyurub dağ yəhudilərinin kompakt şəkildə yaşadığı Qırmızı qəsəbəyə (Quba) gəlsinlər. Onda onlar Azərbaycanda yaşayan dağ yəhudilərinin necə qayğı ilə əhatə olunduqlarını öz gözləri ilə görə bilərlər.

Burada bir məqama da toxunmaq istərdim. İndi bu və ya digər millətə məxsus din xadimlərini azərbaycanlıların, azərbaycanlı din xadimlərini də onların tədbirlərində, o cümlədən yas mərasimlərində iştirak edirlər. Halbuki dünyanın heç bir yerində belə bir mənzərə ilə qarşılaşmaq mümkün deyil. Bu, yalnız Azərbaycana xas bir mədəniyyətdir. Şübhəsiz, belə bir atmosferi yaradan bizim ulu öndərimiz olub. Ümummilli lider Heydər Əliyev xalqımızın bu nəcib xüsusiyyətinin İslam dinindən də qaynaqlandığını çox gözəl ifadə edərək demişdir: "... Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan əhalisinin çox hissəsinin etiqad etdiyi müsəlman dinində, onun kökündə də tolerantlıq var".

## "Dəmir yumruq" ətrafında birləşən tolerantlıq

Bu tolerantlıq ən dar günümüzdə də imdadımıza çatıb. Belə ki, istər Birinci Qarabağ müharibəsində, istərsə də Vətən müharibəsində ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, yəhudisi də, ləzgisi

də, talışı da, avarı da, rusu da, kürdü də, molokanı da, türkü də bir çağırışla "Dəmir yumruq" kimi birləşərək erməni qəsbkarlığına qarşı vuruşdular. Bu mənada cəsarətlə demək olar ki, tolerantlığımız dədə-baba yurdumuz Qarabağın azadlığına uzanan parlaq yolda daha da bərkidi. Təkcə bir nümunə çəkək ki, Birinci Qarabağ savaşında tankı ilə düşmənə qan udduran və qəhrəmanlıqla şəhadətə ucalan yəhudi əsilli Milli Qəhrəman Albert Aqarunovun, eləcə də Milli Qəhrəman Yuri Kovalyovun şücaətləri haqqında bu gün hər kəs qürurla danışır. İkinci Qarabağ müharibəsində qazi olmuş və medallarla təltif edilmiş Vladislav Karçaşkin və Denis Quzlayevin nümunələri də dünyaya bəllidir.

Bu mənada demək istərdim ki, İkinci Qarabağ müharibəsində parlaq Zəfər çələnginin hörülməsində də bütün millətlərin nümayəndələrinin payı vardır. Bu mənada 44 gün davam edən İkinci Qarabağ müharibəsi həm də tolerantlığımızın təntənəsi kimi tarixə qızıl hərflərlə həkk olundu. Ona görə də bu Zəfərimiz həm də ulu öndərin adı ilə bağlıdır.

Ulu öndər Heydər Əliyev kursunun layiqli davamçısı, "Bugünkü Azərbaycanı dini dözümlülük, tolerantlıq mühiti səciyyələndirir", - deyən Prezident İlham Əliyev də tolerantlığı yüksək dəyərləndirir və bu istiqamətdə mükəmməl addımlar atmaqla ona yeni çalarlar əlavə edir. Buna Prezident İlham Əliyevin "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında" 11 yanvar 2016-cı il tarixli Sərəncamını misal göstərmək olar. Bu da multikulturalizmin, tolerantlıq ənənələrinin qorunub saxlanılması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması deməkdir. Azərbaycanda tolerantlığın ənənələrinin təbliği ilə bağlı Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən də möhtəşəm layihələr həyata keçirilir. Bu layihələr bir daha onu göstərir ki, müxtəlif dini və etnik mənsubiyyətə malik insanların Azərbaycanda əsrlər boyu dinc yanaşı yaşaması ölkəmizdə tolerant cəmiyyət modeli kimi mövcuddur.

2021-ci ilin mayında Şuşanın Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalının ilk günündə ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı "Azərbaycan musiqisində multikulturalizm" mövzusunda təqdim olunub. Festivalın açılışındakı çıxışında Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır".

Bir sözlə, müstəqil Azərbaycan qazandığı bir sıra nailiyyətlərlə yanaşı, həm də regionda, eləcə də dünyada fərqli sivilizasiyaların qovuşduğu tolerant məkan kimi tanınır. Yəni respublikamız bütün millətlərin, müxtəlif dinlərin nümayəndələrinin bir ailə kimi yaşadıqları nadir ölkələrdəndir. Bu mənada Azərbaycan öz tolerant yaşam tərzi ilə artıq dünyaya nümunədir. Bu nadirliyi bizə bəxş edən ulu öndər Heydər Əliyev olub.